# GƏNCƏ ŞƏHƏRİNİN TARİXİ-COĞRAFİ XÜSUSİYYƏTLƏRİ VƏ MÜASİR SOSİAL-İQTİSADİ İNKİŞAFIN PROBLEMLƏRİ

**E.S. Bədəlov**
coğrafiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
badalov.1958@mail.ru

Məqalədə Azərbaycanın ən qədim tarixi şəhərlərdən biri olan Gəncənin tarixi-coğrafi xüsusiyyətləri və şəhərin inkişafının əsas “çiçəklənmə” mərhələləri tədqiq edilmiş, xüsusilə X-XII, XVI-XVIII və XIX-XX əsrləri üzrə şəhərsalma, məskunlaşma və əhali sayının artım xüsusiyyətləri, mədəni-iqtisadi inkişafı araşdırılmışdır. Ölkənin müstəqiliyi mərhələsində şəhərin sosial-iqtisadi inkişaf problemləri, təsərrüfatın sahə və ərazi strukturunun əsas istiqamətləri, xidmət və nəqliyyat infrastrukturunun, yaşıllaşdırma və d. məsələlərin müasir vəziyyətinin iqtisadi-coğrafi təhlili aparılmışdır. Gəncənin dayanıqlı iqtisadi inkişafı üçün priotet istiqamətlər təklif kimi verilmişdir.

***Açar sözlər:*** *Gəncə, tarixi-coğrafi xüsusiyyətləri, şəhərsalma, sənaye infrastrukturu.*

Gəncə şəhəri Azərbaycan ərazisində qədim şəhərlərin meydana gəldiyi ocaqlardan biri kimi tarixin daş yaddaşını özündə əks etdirir. Bu şəhər mədəniyyətimizin inkişafında böyük tarixi dövr keçmiş və ölkəmizin formalaşmasında həlledici rol oynamışdır. Şəhər ərazisində tapılan arxeoloyi qazıntılar şəhərin qədimliyini subut edir. Belə ki, Gəncə Dövlət Qoruğunun ərazisindəki Təndirli deyilən yerdə eneolit dövrünə aid arxeoloji tapıntıların varlığı sübut edir ki, burada neolit dövründə başlamış həyat tərzi e.ə. V minillikdə, eneolit dövründə də davam edib. Məhz e.ə IV-III minilliklərdə Gəncə eneolit mədəniyyəti əsasında yaranmış ilk tunc dövrü

mədəniyyəti – Aran (KürAraz) mədəniyyətinin əsas mərkəzlərindən biri olub. Gəncə ətrafı kurqan abidələri bir daha subut edir, adətlərindəki eynilik bu ərazilərdə yaşamış tayfaların etnik mənsubiyyətcə qədim Oğuz tayfaları olduqlarını göstərir. Arxeoloji tədqiqatların nəticələri e.ə. I minillikdə Yaxın Şərq və Ön Asiyanın ticarət mərkəzlərini əlaqələndirən əsas karvan yollarının Gəncədən keçdiyini göstərir. Bu səbəbdən Gəncə Cənubi Qafqazda ticarət yolu üzərində inkişaf edən mühüm mədəniyyət və ticarət mərkəzlərindən biri olmuşdur. Gəncə ətrafında Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş pul dəfinəsinin tapılması artıq antik dövrdə ərazidə yüksək dərəcədə inkişaf etmiş sənətkarlıq və ticarət mərkəzi kimi tanınan iri şəhərin olduğunu isbat edir. Strabonun məlumatlarını əsas götürsək, antik dövrdə Kür çayı gəmiçilik üçün yararlı olduğundan, bütün iri şəhərlər həmin çay boyunca yerləşmişdi.

Gəncə Albaniya dövlətçiliyi dövründə əsas şəhərlərindən biri olmuş, bu dövrə aid abidələrdən, qala divarlarının daha qədim qalıqları, VII-VIII əsrlərə aid yeddi aşırımlı körpünün tağları, 4,5 m dərinlikdəki su kəməri xətti qalıqlarını və s. aşkarlanması şəhərin inkişafını göstərir. Sasani hökmdarı I Qubad (489-531) dövründə Gəncə şəhərinin yenidən qurulması işləri aparılmış və qala divarları bərpa edilmişdir [Gəncə, 1994; s. 9].

Ərəb xilafəti dövründə Gəncə şəhərinin yeni inkişaf mərhələsi başlanır. 850-860-cı illərdə ərəb canişini şəhəri yenidən bərpa edir. Əl Müqəddəsi Gəncəni daha çox əhalisi olan və varlı şəhər adlandırır. 944-ci ildə Bərdənin suqutu ilə Arranın paytaxtı Gəncə olur və “Arranın anası” adlandırılmağa başlayır. Bu dövrdə şəhərin ətraf qala divarları möhkəmləndirilir, Keşikçi qala, Gülüstan qalası, Qızıl qala, Balçılı qalası, Köşkü qalası və s. kimi müdafiə istehkamları tikilmişdi. 951-1088-ci illərdə Şadlılar (Şəddadilər) dövründə Gəncə bu dövlətin paytaxtı olur və böyük sənətkarlıq və

ticarət şəhərinə çevrilir. XI əsrdə “alban” katalikosunun iqamətgahı Bərdədən Gəncəyə köçürülür.

1088-ci ildə Gəncə Səlcuqilər dövlətinin tərkibinə qatılır. XII-XIII əsrlərdə Eldəgəzlər dövlətinin siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayan şəhər kimi məşhurlaşmışdı. Bu dövrdə Gəncə əhalisi 400-500 min nəfər olmuş və Şərqin ən böyük şəhərlərindən sayılırdı. 1139-cu ildə zəlzələ nəticəsində şəhər viran qalsada, tezliklə bərpa olunur. 1225-ci ildə Gəncə şəhəri Xərəzmşah Cəlalədinin yaratdığı dövlətin paytaxtı olur. 1231-ci ildə baş verən zəlzələdən sonra monqollar şəhəri alaraq viran edir, lakin 1239-cu ildən yenidən bərpa olunur. Avropa səyyahı Rubrik yazırdı ki, XIII əsrin ortaları Gəncə abad və böyük şəhər idi [Altman-1949, s.74]. Gəncə Hülakilər dövlətinin ən əsas mərkəzi şəhəri sayılırdı. Qazan xanın hakimiyyəti dövründə Gəncə ən böyük ticarət və mədəniyyət mərkəzinə çevrilir. Gəncə şəhərinin inkişafında X-XIII əsrlər “Qızıl Əsr” sayılmış, 1-ci yüksəliş dövrü kişi fərqlənmiş, islam və xristian mədəniyyət mərkəzi kimi tanınmışdır. Burada alim və şairlər yetişmiş, onlardan məşhur şairlər Əbül-Üla Gəncəvi, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Qivami Gəncəvi, Tacəddin Gəncəvi, din xadimləri, hüquqşünas Əbülfəzl Gəncəvi və Ömər Gəncəli, astronom - filosof İoan Sarkavaq, tarixçi Kirokos və Vardan Gəncəli, salnaməçi və hüquqşünas alim Mxitar Qoş olmuşdur [Altman, 1949; s. 56]. Mxitar Qoş Gəncə zəlzələsi haqqında geniş məlumat vermişdir. Şəhərin hakimi Qara Sunqur və onun varisi dağılmış şəhəri bərpa etdirir.

XIV əsrin sonu Teymurləngin dövründə 50 min şamlı ailəsi Suriyanın şimalında Gəncə və d. şəhərlərə köçürülmüşdür [Altman, 1949; s. 81]. XV əsrdə Gəncə şəhəri Azərbaycanda hakimiyyətdə olan olan Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti illərində Yar Əhməd Qaramanlı və onun sələfləri tərədindən idarə

edilmiş, böyük quruculuq işləri aparılmışdır. Bu dövrdə şəhərdə daha çox qaramanlı və qacarlar məskunlaşırdılar.

Gəncə şəhərinin 2-ci yüksəlişi, Səfəvilər dövrünün XVI - XVII əsrləri və Gəncə xanlıq dövrünü (XVIII əsr) əhatə edir. 1554-cü ildə Gəncə-Qarabağ bəylərbəyliyi yaradılmış və Gəncə mərkəz şəhəri olmuş, Qacarlardan olan Şahverdi Sultan Ziyadoğlu isə ilk bəylər-bəyisi olmuşdur. XVI əsrin 80-ci illəri Köhnə Gəncə əhalisi 50 min ailə, 300 min nəfər olmuşdur. 1587-ci ildə Osmanlı dövlətinin tərkibinə qatılır, Fərhad paşa 1588-ci ildə qədim Gəncənin bir neçə kilometrliyində Gəncəçayın sol sahilində iki qat qala divarları ilə əhatələnmiş qala tikdirmişdir. 1606-cı ildə şəhər Şah Abbas tərəfin-dən azad olur, 1616-cı il mayın 10-da yeni şəhərin əsası qoyulur. Şeyx Bahəddin Amulinin planı üzrə tikilir. XVII əsrin 40-cı illəri Yeni Gəncə əhalisi 6 min ailə, 40 min nəfər idi. Qacarların nüfuzlu Ziyadoğlular səcərəsinin üç yüz illik idarəçiliyi dövründə Gəncənin əvvəlki tarixi memarlıq şöhrəti yeni mərhələyə yüksəldi. 1703-cü ildə Azərbaycanda olmuş Holland rəssamı Brunye yazırdı ki, Gəncə Şamaxıdan 4 dəfə böyük olması ilə fərqlənirdi. Gəncə şəhərinin tarixi məhəllələri Qala, İçqala, Çaylı, Şıxdüzü, Zərrabi, həmçinin burada tarixən məskunlaşmış tayfalar adı ilə bağmanlar, xəlfəli, qacarlar, qaramanli qazaxlar, seyidlər, şahsevənlər, imamlı, qızıl hacılı, təbrizli, şamli, tatlar və d. olmuşdur. Sənətkar adı ilə olan məhəllələr misgərlər, dəmirçilər, sarvanlar, ozanlar, duluzçular, dabbaqlar, çariqçilar, balçili, şatirçilar və d. idi.



Şəkil 1. Gəncə şəhəri XVIII əsr



Şəkil 2. Gəncə şəhərinin planı 1797-ci il [Altman, 1949]

Gəncə 1747-1804-cü illər xanlığın paytaxtı olmuş, Cavad xanın hakimiyyəti (1786-1804) illərində isə Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayan şəhər kimi məşhurlaşmışdı. Lakin Rusiya İmperiyasının Cənubi Qafqazda Gürçüstan ərazisinə yiyələnməsi nəticəsidə Cavad xanın qəhrəmancasına müdafisinə baxmayaraq 1804 cü il Gəncə işğal edilir. Nikolay Dubrovin o dövrdə yazırdı: "Gəncə İranın şimal əyalətlərinə strateji cəhətdən açar idi". General Sisianov yazırdı ki, "Gəncə qalasının

yerli mövqeyi bütün Adərbican üzərində hökmrandır”. 1804-cü ildə Gəncə Yelizavetopol adlandırılır.

Gəncə şəhərində 1804-cü ildə 1737 yaşayış evi və bir o qədər təsərrüfat tikilisi var idi, əhali sayı 6 min nəfər olmuşdu. 1840-cı ildə Gəncə qəzası yaradılır və İmeretiya quberniyasının tərkibinə verilir.1860-cı illərin sonunda şəhərdə 3132 yaşayış evi bir o qədər təsərrüfat tikilisi var idi, əhali sayı 16 min nəfər olmuşdur. 1867-cı ildə Yelizavetopol quberniyası yaradılır və onun mərkəz şəhəri Gəncə olur. 1873-cü ildə şəhərin baş planı tərtib edilir. 1913-cü ildə artıq şəhərin sahəsi bir neçə dəfə artaraq 120 kv.km olmuş və 13 min yaşayış evləri var idi. Gəncə sənətkarlar şəhəri olmuş, 1804-cü ildə 288 sənətkar var idisə, 1865-ci ildə onların sayı 1293 və 1890-cı ildə 2100 olmuşdu [Gəncə, 1994; s. 52-56].

Kapitalizm dövründə XIX əsrin sonu XX əsrin əvvəli Gəncə olkə üzrə əsas şəhərlərdən biri olaraq, sənətkarlığın müxtəlif sahələri üzrə, həmçinin istehsal müəssisələrindən toxuculuq sənaye sahələri dabbağlıq, ipəksarıma, xalçaçılıq-gəbəçilik, pambıqtəmizləmə (8 zavod) və yeyinti sahələri unüyütmə (21 dəyirman), biyan kökü emalı, şərab-konyak, tütün fabriki, kərpic zavodları (14) ilə ölkənin iqtisadi həyatında mühüm yer tuturdu. Bu dövrdə şəhər öz tacirləri (600) ilə də tanınırdı. Kapitalist münasibətlərinin inkişafı şəhər əhalisinin miqrasiya nəticəsində sürətlə artımına şərait yaratmışdı. 1873-1916-cı illər ərzində şəhərdə əhali sayı 3 dəfə artmış, 1897-ci ildə şəhər əhalisinin 8,0 min nəfərini, 1916-cı ildə isə 9,2 min nəfərini gəlmə əhali təşkil edirdi. Gələn əhalinin əsas hissəsini quberniyanın kənd əhalisi, Cənubi Azərbaycandan gələnlər, həmçinin Rusiya və Avropadan gələnlər təşkil edirdi. Şəhər əhalisinin daha sürətli artımı 1897-1916-cı illər ərzində baş vermişdi.

Cədvəl 1

Gəncə əhalisinin artım dinamikası (XIX-XX əsrin əvvəli)

| | 1842 | 1856 | 1873 | 1886 | 1897 | 1916 | 1917 |
|---|---|---|---|---|---|---|---|
| Gəncə | 7790 | 10938 | 18505 | 20294 | 33625 | 57731 | 63400 |

Mənbə: [Gəncə, 1994, s.75]

XX əsrin əvvəlində Gəncə ölkənin 2-ci iqtisadi və mədəniyyət mərkəzinə çevrilir. 1918-ci ilin mart ayında ölkənin əksər şəhərlərində baş verən soyqırım hadisəsi, burada yerli sahibkarların üstün mövqeyi və siyasi fəallığı nəticəsində baş vermədi. Şərqdə yeni yaradılan Azərbaycan Cumurhiyyətinin paytaxtı bir neçə ay ərzində Gəncə şəhəri oldu (16.06-17.09.1918). Gəncənin adı bərpa edildi. Bu dövrdə Qərbi Azərbaycanda daşnakların apardığı soyqırım nəticəsində çox saylı soydaşımız köçərək Gəncə ətrafında məskunlaşırdı. Təkcə 1919-cu ildə Gəncədə 21 min nəfərdən çox qaçqın yerləşdirildi. Sovet işğalı vaxtı 1920-ci ilin may ayında Gəncədə ən böyük silahlı üsyan baş verdi bu döyüşlərdə 15 min nəfərdən çox əhali şəhid oldu [Gəncə, 1994, s. 99]. Sovet hakimiyyətinin 1920-ci ilində Gəncə eyni adlı qəzanın mərkəzi olur və bu qəza tərkibinə tərkibində 4 nahiyə daxil idi. 1924-cü ildə Gəncə şəhər soveti yaradılır.

1929-cu ildə Gəncə qəzası ləğv edilir, dairəsi yaradılır, 1930-cu ildə isə dairə ləğv edilir yenidən şəhər soveti yaradılır. Şəhər ərazisinə Alabaşlı və Zazalı kəndləri arasında ərazi, həmçinin şimal istiqamətdə Kür çayına kimi ərazi, burada olan Qırmızı kənd, Sərkər, Bağbanlar, Noraşen, Nəbiağalı kənd sovetləri daxil olmuşdu. 1934-cü ildə Vağzalyanı və Yeni İrəvan qəsəbələri yaradılır. 1935-ci ildə şəhərin adı yenidən dəyişdirilərək Kirovabad qoyulur. 1939-cu ildə Respublika tabeliyində olan şəhər statusu alır [Gəncə, 1994; s.105]. Şəhərdə yeni sənaye müəssisələrinin yaranması şəhərin inkişaf və böyüməsinə səbəb olmuş, şəhər ölkənin 2-ci elm-

təhsil-mədəniyyət mərkəzinə çevrilir. 1921-1939-cu illər ərzində şəhər əhalisi 2 dəfədən çox artmış, 1939-cu ildə ölkə şəhər əhalisinin 11% Gəncənin payına düşürdü. 1926-1939-cu illərdə şəhər əhalisinin milli tərkibində dəyişiliklər baş vermiş, yerli əhali sayı 31 min nəfərdən 50 minədək artsada, payı 53,8%-dən 50,3% enmiş, ermənilərin sayı 16 mindən 27 min nəfərədək artmış və ya payı 28,2%-dən 27,1%-dək azalmışdı. Ölkədə 30-cu illərdə aparılan sənayeləşmə siyasəti nəticəsində yeni müəssisələrə gələn ixtisaslı kadrlar ruslar olduğu üçün, onların sayı 4,5 mindən 17,2 min nəfərədək yüksəlmişdı. 1936-cı ildə Gəncənin baş planının hazırlanması şəhərin inkişafında mühüm addım idi. Böyük Vətən müharibəsində 26,4 min nəfər iştirak etmiş və onların yarıdan çoxu müharibədən qayıtmamışdı. Bu dövrdə şəhər əhalisinin sayı xeyli azalmış, 1950-ci illərin ortaları əvvəlki səviyyə bərpa olmuşdu. 1960-cı ildə şəhərdə əhali sayının 20 min nəfərdən çox artmasının səbəbi şəhərin tərkibinə 4 qəsəbə və 9 kəndin birləşməsi ilə bağlı olmuşdur. 1959-1989-cu illər ərzində şəhərin əhalisi 2,4 dəfə artmışdı.

Cədvəl 2

Gəncə əhalisinin artım dinamikası (XX-XXI əsrin əvvəli)

| | Sovet dövrü | | | | | | | Müstəqillik dövrü | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1921 | 1926 | 1939 | 1959 | 1960 | 1970 | 1989 | 1999 | 2009 | 2019 | 2023 |
| Gəncə | 42,5 | 57,4 | 99,0 | 116,1 | 137,2 | 189,5 | 280,6 | 299,3 | 313,3 | 328,8 | 330,3 |

Mənbə: [Gəncə-1994], Azərbaycan SR əhalisinin siyahıyaalması, 1926, 1939, 1959, 1970, 1989. Azərbaycan əhalisinin siyahıyaalması, 1999, 2009 və 2019.

Sovet dövrü ilk illərində şəhərdə toxuculuq, yun sənayisinin əsasını təşkil edən mahud fabriki, pambıqtəmizləmə və parça, yeyinti sənayesində yağ-piy müəssisələri tikilərək istifadəyə verilmişdi. 1940-cı ildə ölkə üzrə sənaye məhsulu istehsalının 3,2% verərək, 2-ci sənaye şəhəri idi. 1942-ci ildə Simferopol kənd təsərrüfat maşınları istehsal edən zavod Gəncəyə köçrürülmüşdü. 1950-

ci illərin ortaları əlvan metallurgiyanın əsas sahəsi olan aliminium zavodu, toxuculuq-tikiş, xalça və mahud kombinatları, maşınqayırma, cihazqayırma, yeyinti sənayesində o cümlədən qənnadı, ət kombinatı və fəaliyyətə başlamışdı. Bu illərdə Gəncədə 2 ali təhsil ocağı, 27 məktəb, 33 kitabxana, 23 klub, çox sayda mədəni – maarif və tibb müəssisələri, Dram Teatrı, filormoniya və digər mədəni-sosial yönümlü müəssisələr fəaliyyət göstərirdilər və mənzil tikintisi sürətlə artmışdı. 1960-cı illərdə İES, cihazqayırma, rabitə, çini-saxsı qablar, kimya sənayesi sulfat turşusu və gübrə istehsalı müəssisələri, evtikmə kombinatları və digər zavodlar fəaliyyətə başlayır. 1960-cı ildə Gəncə şəhər soveti yaradılır, tərkibinə 4 qəsəbə və 9 kənd birləşdirilir [Gəncə, 1994; s. 132]. Əhalinin komunal xidmətlərlə təminatı yaxşılaşır, beləki 1960-70-ci illərdə təbii qaza olan tələbatın böyük hissəsi ödənilirdi. Suya olan tələbat 1957-ci ildə Ağsu-Gəncə, 1972-ci il Kür-Gəncə, 1980-ci illərdə Qızılqaya-Gəncə kəmərlərinin çəkilməsi ilə təmin edilirdi [Gəncə, 1994; s. 147].

Gəncənin inkişafında 1970-1980-ci illər ərzində yeni dövr başlanır, xüsusilə şəhərin abadlaşmasına, parkların salınmasına, şəhər ətrafında Yeni Gəncə massivinin və 4 mikrorayon salınması və mənzil tikintisinin genişlənməsi baş verir, 1980-1990-cı illər ərzində 5,7 mln.kv.m. mənzil sahəsi tikilib istifadəyə verilmişdi. Məhz bu dövrdə şəhərin komunal və sosial xidmət sahələri formalaşmağa başlayır. Bütün bu işlərdə Ulu Öndər Heydər Əliyevin böyük rolu və əməyi olmuşdur. Bu dövrdə Gəncə sənaye məhsulu istehsalına görə respublikanın 3-cü şəhər idi və burada çörək və çörək məmulatları kombinatları, şərab müəssisəsi, qarışıq yem zavodları, tikiş və digər sahələr üzrə yeni sexlər açılır, avtomobil zavodunun tikintisinə başlansada lakin bu müəssisə istifadəyə verilməmişdir.

Müstəqillik dövrü ölkə regionlarında aparılan iqtisadi islahatlar Gəncə-Daşkəsən iqtisadi rayonunda təsərrüfat sahələrin inkişafında və şəhər məskunlaşma sisteminin formalaşmasında həlledici rol oynamışdır. Bu dövrdə Gəncə şəhərinin inkişafında İCM, sosial-iqtisadi və mineral ehtiyat amillərin təsiri daha çox olmuşdur. 1995-ci ildə İR əhalisinin 71,5% və ya 371 min n. şəhər məskənlərində yaşayırdısa, Gəncə şəhərində 294 min n. əhali var idi. Ölkə şəhər əhalisinin 7,5% bu şəhərin payına düşürdü [Eminov, 1996; s. 13]. Lakin sonrakı illərdə Gəncənin şəhər əhalisi üzrə payı azalmışdır. Gəncə şəhərinin əsas sosial-iqtisadi göstəricilərə görə dinamikası təhlili göstərir ki, şəhərin xüsusi çəkisi iqtisadiyatda ümumi istehsaldan əldə olunan gəlir üzrə, sənaye məhsulu istehsalı və əsas kapitala yönəlmiş vəsait üzrə, həmçinin əhalinin gəlirləri, istifadəyə verilən mənzillər və yeni iş yerlərin açılması üzrə azalma meyilli üstün olmuşdur. Təkcə parakəndə ticarət dövriyyəsində stabillik səviyyəsinin qeydə alınması, bilavasitə Gəncənin ölkənin Qərb zonasında böyük ticarət mərkəzi olması ilə bağlı olmuşdur. Şəhərin funksional təsnifatında son illər şəhərəxidmət sahələrinin inkişafı şəhəryaratma amilini üstələmişdir. Gəncə iqtisadiyatda ümumi istehsaldan əldə olunan gəlir üzrə iqtisadi rayon üzrə payı 48%, sənaye məhsulu istehsalı və parakəndə ticarət dövriyyəsi üzrə payı göstəricisi 65-66% olmuş, son illər bütün göstəricilərdə artım meyli müşahidə edilmişdir. 2008-ci ildə İ.Əliyev bu şəhərdə çıxışı vaxtı deyirdi ki, Gəncə regional müstəvidə öz yerini tutan bir şəhərdir. Burada regional paytaxta xas bütün şərait var [Nadirov, 2010; s. 54].

Cədvəl 3

Gəncə şəhərinin əsas sosial-iqtisadi göstəricilərə görə dinamikası, (%-lə)

| Göstəricilər | Ölkə üzrə payı | | |
|---|---|---|---|
| | 2003 | 2016 | 2022 |
| Əhali sayı | 3,7 | 3,4 | 3,3 |
| Şəhər əhalisi üzrə | 7,3 | 6,4 | 6,0 |
| İqtisadiyyatdan əldə olunan gəlir | 0,9 | 1,1 | 0,8 |
| Əsas kapitala yönəlmiş vəsait | 0,1 | 2,2 | 0,6 |
| Sənaye məhsulu | 1,1 | 0,9 | 0,7 |
| Parakəndə ticarət dövriyyəsi | 3,1 | 2,6 | 2,6 |
| İstifadəyə verilən mənzillər | 1,1 | 1,9 | 1,0 |
| Əhalinin gəlirləri | - | 3,1 | 2,8 |
| Yeni iş yerləri min n. | 2,6 | 3,0 | 1,1 |

Mənbə: Azərbaycan regionları. Bakı. DSK.2004, 2017, 2023.

Regionda Dövlət Proqramına uyğun olaraq Gəncədə istifadəyə verilən şokolad və makaron fabrikləri, metaltökmə və təzyiqlə emal-boyama zavodları və d. müəssisələlərlə yanaşı, Gəncə Beynəlxalq Hava Limanı (2006-2010-cu illərdə), sonrakı dövrdə Avtovağzal Kompleksi, Gəncə üzgüçülük hovuzu (2016), həmçinin Səhiyyə sahəsində Gəncədə Fiziki Qüsurlu insanlar üçün Regional Mərkəzi, Turizm sahəsində Ramada və Lion Plaza mehmanxanalarını göstər-mək olar. Gəncədə yaradılan Alüminium Texnoparkında fəaliyyət göstərən DETAL Alüminium MMC dünyanın 17-dən çox ölkəsinə məhsul göndərir və müəssisə tam gücü ilə işini davam etdirir. Burada Anod istehsalı və II Faza Elektrolid zavodların inşası və yeni istehsal xətlərinin istifadəyə verilmişdir.

Gəncə Avtomobil Zavodu Belarusiyanın Minsk traktor zavodu, Rusiyanın Ural avtomobil zavodu və digər zavodlarla qarşılıqlı əlaqələri vardır. Bu ildən zavod İtaliyanın “SDF group” şirkəti ilə ikitərəfli əməkdaşlıq çərçivəsində yeni trarktorların yığımı həyata

keçirilir. keyfiyyəti ilə seçilən alman traktorlarına Azərbaycan bazarında tələbatın olduğunu nəzərə alaraq, “Gəncə avtomobil zavodu” İstehsalat Birliyi il ərzində ilkin mərhələdə 300-ə yaxın traktorun yığılmasını nəzərdə tutulmuşdur. Bunlarla yanaşı hazırda yük avtomobilləri, qoşqular və Belorus traktorlarıda istehsal olunur. Son illər Süni mərmər qranit və quru inşaat qarışıqları zavodunun, “MFK” MMC-nin illik istehsal gücü 30 milyon şərti kərpic olan müəssisənin, “Gəncə Şərab-2” ASC müəssisələri fəaliyyətə başlamışdır. “Gəncə Cihazqayırma zavodu” ASC-də yeni müasir texnoloji avadanlıqlar alınaraq quraşdırılmış, müəssisənin ölçmə cihazlar istehsalı artmış, məhsulun bir hissəsi xaricə ixrac olunmuşdur. Müasir dövr əlvan-qara metallurgiya, maşınqayırma, traktor-avtomobilqayırma, cihazqayırma, kimya-plastmas boru, tikinti materialları, toxuculuq-pambıqparça, tikiş və qida sənaye sahələri şəhəryaradıcı amil kimi böyük rola malikdirlər.

Regionda sosial sahədə yaşayış evlərinin istifadəyə verilməsi mühüm yer tutur, tikinti işlərinin dinamikasının təhlili göstərir ki, 2011-2015-ci və son illər bu işlər daha sürətli olmuşdur. Şəhərdə sosial evlərin tikintisi sürətlə aparılır, Dövlət Proqramına uyğun olaraq şəhərdə çoxmənzilli yaşayış binaları əsaslı təmir edilmiş, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün rayonlarda fərdi yaşayış evləri tikilir. Gəncədə Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrində inşa edilən fərdi yaşayış evlərinin bir hissəsi (5 mindən çox) qeydiyyatsızdır. Gəncənin digər problemi kommunal xidmətlərin və sosial infrastrukturun yaxşılaşdırılması ilə bağlıdır. Gəncənin Məhsəti, Cavad xan, Şıxzamanlı, Natəvan qəsəbələri, Avtozavod, Gülüstan, Qaraməmmədli yaşayış massivlərində 1100-ə yaxın ailənin yaşadığı ərazilərin qazlaşdırılması; bu qəsəbələrdə elektrik enerjisi ilə təmin olunmamış yeni inşa edilmiş fərdi yaşayış evlərinin elektrik enerjisi ilə təchizatı; Cavad xan, Məhsəti,

Şıxzamanlı, Sadıllı qəsəbələrində yeni salınmış yaşayış massivlərində içməli su təminatı və kanalizasiya şəbəkəsinin qurulması aparılmalıdır.

Şəhər xidmət xüsusiyyətinə görə əhalinin sosial sfera ilə təminatında rolu böyükdür, bu sahənin inkişafı məşğulluq probleminin həllində həlledici rol oynayır. Şəhərdə aparılan davamlı quruculuq işləri nəticəsində yeni istehsal və xidmət sahələrinin, nəqliyyat-kommunikasiya sistemlərinin yaradılması, enerji, su, qaz, istilik təminatının yenidən qurulması, onların sürətlə inkişafına təkan vermişdir. Ölkəmizdə son illərdə regionların inkişafına aid Dövlət Proqramları və Yol Xəritələrində nəzərdə tutulan layihələrin həyata keçirilməsi şəhərlərin inkişafında mühüm əhəmiyyətə malikdir. Şəhərlərin funksional strukturunun təkmilləşdirilmə məsələlərini araşdırıb belə nəticəyə gəlmişik ki, problemin həlli yolları üçün aşağıdakı tövsiyələr məqsədəuyğundur:

Şəhərdə sənaye parklarının, klasterlərin yaradılması, istehsalın səmərəli və daha effektli yerləşdirilməsi, sosial infrastrukturun inkişaf səviyyəsinin müasir standartlara uyğun həllində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilməsi daha faydalı olardı;

Şəhərdə məşğulluq səviyyəsinin təhlili və qiymətləndirilməsi, əmək bazarının vəziyyətinə uyğun tədbirlər görülməlidir. Gəncədə hər il 4 min yeni iş yerinin yaradılmasına ehtiyac var, amma min iş yeri ancaq açılır. Xüsusi ilə gənclərin və qadınların işsizliyinin aradan qaldırılması üçün, həmçinin məşğulluq probleminin həlli istiqamətində tədbirlər görülməli;

Şəhərin büdcə gəlirlərinin və kapital qoyuluşunun artırılması, həmçinin nəqliyyat, turist, mühəndis, iqtisadi və innovasiya infrastrukturların inkişafı istiqamətində işlərin görülməsi tezliklə şəhərlərin dayanıqlı inkişafına səbəb olar.

Ölkəmizin beynəlxalq aləmdə son illər sürətlə artan nüfuzu, iqtisadi əlaqələrin dərinləşməsində, geopolitik vəziyyətin və qonşu ölkələrlə strategiyamızın yaxşılaşmasına səbəb olmuş, bu isə ölkə miqyasında xüsusilə Gəncə şəhərinin yenidən qurulmasını tələb edir.

## Ədəbiyyat


1. Azərbaycan regionları. 2004, 2017, 2023. Bakı: DSK, 2004, 2017, 2023.
2. Azərbaycan SSR əhalisinin siyahıyaalması. Bakı: DSK, 1926, 1939, 1959, 1970, 1989-cu illər.
3. Azərbaycan əhalisinin siyahıyaalması. Bakı: DSK, 1999, 2009 və 2019-cu illər.
4. Azərbaycan əhalisi Bakı: DSK, 2023. 136 s.
5. Azərbaycanda tikinti. Bakı: DSK, 2023. 341 s.
6. Bağırova F.R Gəncə şəhərinin təsərüfat strukturu və onun təkmilləşdirilməsi problemləri // "Azərbaycan Respublikasında demoqrafik inkişaf: Əhali məskunlaşmasının perspektivləri və regional problemləri" adlı elmi-praktiki konfransı materialları. Bakı: Avropa, 2016, s. 420-429.
7. Bədəlov E.S., Cəfərova X.Ş., Bağırova F.R. Azərbaycanın dünya təsərrüfatına inteqrasiyası və Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda sosial-iqtisadi inkişaf problemləri // Qlabal iqtisadi şərait və Azərbaycanın iqtisadi-coğrafi mövqeyi mövzusunda Respublika elmi-praktik konfrans materialları. Bakı: BDU, 2017. s. 137-142.
8. Azərbaycan şəhərlərinin funksional strukturunun təkmilləşdirilməsi problemləri // "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mövzusunda elmi konfrans, Gəncə Dövlət Universiteti. Gəncə: 2018, s. 10-13.
9. Gəncə (tarixi oçerk), Bakı: Elm, 1994. 152 s.
10. Məmmədov A. Gəncə arxeoloji ekspedisiyasının tədqiqatları // 525-qəzet, 01.05. 2014
11. Nadirov A. Akademiyada regionların sosial-iqtisadi inkişaf problemləri üzrə tədqiqatların qısa tarixi. Bakı: 2010. 127 s.
12. Eminov Z.N. Azərbaycan Respublikasında əhalinin vahid məskunlaşması sisteminin formalaşdırılması və inkişafı (Gəncə iqtisadi rayonu timsalında) // dissertasiyasının avtoreferatı. Bakı: 1996. 26 s.
13. Альтман М.М. Исторический очерк города Ганджи. Баку: Красный Восток, 1949. 114 с.

**HISTORICAL AND GEOGRAPHICAL CHARACTERISTICS AND CONTEMPORARY SOCIOECONOMIC DEVELOPMENT PROBLEMS OF THE GANJA CITY**

The historical and geographical charctersitics and the primary "blossoming" stages of the Ganja city, which is one the ancient and largest cities of Azerbaijan, especially town-building during X-XII, XVI-XVIII and XIX-XX centuries, settlement and population increase features, and cultural-economic development of the city was studied in the research paper.

In the independence stages of the country, the socioeconomic development challenges of the city, the main directions o of the space and territorial structure of the economy were researched, and an economic-geographical analysis of the modern state of service and transport infrastructure, greening and other issues was carried out. Priority directions for the sustainable economic development of Ganja are given as proposals.

*Keywords: Ganja, historical-geographical characteristics, town-building, industry infrastructure, priority directions.*